# Dağ havalı, bulaq təbəssümlü



*Sabir HÜSEYNOV,*
*Prezident mükafatçısı*

Ədəbiyyatşünaslıqdan bilirik ki, xatirə oçerk kimi faktiki həyat materialı və sənədlər əsasında yazılır. Oçerkdən fərqli olaraq, xatirədə konkret bir şəxsdən bəhs etmək məhdudiyyəti yoxdur. Yəni xatirədə əsas şərt müəllifin iştirak etdiyi, şahidi olduğu hadisələri təsvir etməkdir... Düşünürük ki, fikirlərini həyat materialları əsasında bir məcraya sığışdırmış Hüseyn Məmmədovun 2021-ci ildə «Maarif» nəşriyyatında işıq üzü görmüş «Xatirələrin izi ilə» kitabı da məhz bir xatirə buketidir.

Kitabda faktiki bir həyat hadisəsi geniş anlamda şərh olunur, hadisələr müəllifin öz obyektivində daha dürüst, daha qaynar şəkildə cilalanır. Oxucu bu əsəri oxuduqca həyatın taledə, taleyin həyatda necə səciyyələndiyini və bu ovqatda proseslərin hər iki istiqamətdə necə şaxələndiyini aşkar görür. Nəticədə, özü üçün bir ibrət, bir dərs götürür. Belə deyək, anlamağa çalışır ki, adi bir səhv üzündən insan bir ömür boyu hansı iztirablara düçar ola bilər Bu mənada, Hüseyn müəllimin adıçəkilən əsəri bugünkü və gələcək nəsillər üçün həm də bir ibrət mövzusudur.

Kitab nəfis tərtibatla işıq üzü görüb. Buradakı səliqə sanki əsərdəki hadisələrin hənirindən nizama düşüb. Müəllifin də, oxucunun da eyni rəng çaları tapdığı bu bədii müstəvidə həyat öz rəngində, insan öz çalarında, digər tərpənişlər də öz sürətindədir. Belə bir ovqata malik olmaq hər qələm sahibinə müyəssər olmur. Hüseyn müəllimi bu atmosferdə fərqli göstərən bəlkə də onun təmiz havalı dağlardakı, pak ruhlu obalardakı, ən əsası, dürüst, vicdanlı ailələrdəki həyat məntiqini tuta bilməsidir. Ona görə əsər bu qədər rəvan, bu qədər oxunaqlı və bu qədər təsirlidir. Əslinə qalsa, burada hadisələr iki əsas obrazın üzərində cərəyan edir; təsirli həyat səhnələri də o qədər üzücü deyil, lakin müəllif hətta ən susqun əhatədə belə obrazlarına elə bir səmimiyyət, elə bir bitkin surət verib ki, onları özünün idealın etmək isəyirsən. Söz yox, bu Hüseyn müəllimin yazıçı bacarığıdır, həm də həyata, taleyə düzgün baxışıdır.




Əsərdə obrazlar dürüst, hadisələr təmiz ovqatdadır. Müəllifin diqtə etdiyi digər surətlər çevikdir - halallıq onların həyat kredosudur, nüfuzlu şəxsiyyətlərdir, zəhmətkeş insanlardır və s. O surətlərdə biz bir ağsaqqal görkəmi, bir bulaq saflığı müşahidə edirik. Bütün bunlar da, dediyimiz kimi, müəllifin həyat duyğularının bar-bəhrəsi kimi işıq saçır.

Xalqımızın görkəmli, dəyərli, sədaqətli və yüksək mənəviyyat sahibi olan şəxsiyyətləri barədə hər birimiz yazı yazmağı həmişə özümüzə borc bilmişik. Hüseyn müəllim də elə bu ehtişamla «Xatirələrin izi ilə» əsərini araya-ərsəyə gətirib və orada yüksək həyat eşqi olan insanlardan bəhs edib. O insanlardan ki, el içində özlərinə dərin hörmət və rəğbət qazanıb, həyatda bir çox çətinliklərlə üzləşib və bütün maneələrə mərd-mərdanə sinə gərib, balacadan böyüyə hər kəsin hörmətini saxlayıb, adları gələn yerdə çöhrələrə xoş təbəssüm qonub və s. Nə xoş ki, Hüseyn müəllim onların səmərəli fəaliyyətini özünə bələdçi edib, ömür salnamələrinin işıqlı səhifələrini aramla vərəqləyib. Həyat insanların birgəliyindən bu qədər gözəl görünür. Doğru deyiblər, həyatı insanlar gözəlləşdirir. İnsanların birbirinə qarşı dostluğu, diqqət və qayğısı onların yaşam tərzinə, maarifpərvərlik və vətənpərvərlik duyğularına da sirayət edir. Həm də duyğulu, təfəkkürlü insanlar digərlərindən daha yaxşı düşünür və hərəkət edir, qüdrətli və dəyərli insanlar daha yaxşı yazır, danışır gözəl davranışı ilə seçilir. Məhz Hüseyn müəllimin obraz və surətləri belə insanlardır: humanist, maarifpərvər, sözün əsl mənasında bir örnək həyatın yorulmaz yolçuları, sözə, qələmə hörmət qoyanlar...

Əlbəttə, tanınmaq üçün insan öz adının şərəfini həmişə uca tutmalıdır. Bu mənada, Hüseyn Məmmədovun da böyük bir haqqı var. El-oba sevgisi qazanmış bu insan adının şərəfi ilə özünə bir abidə ucaldıb, soy-kökə hörmət hissi yaşadıb, doğulduğu elə-obaya şan-şöhrət gətirib.

Əlbəttə, kitabda insan şəxsiyyəti özünü bütün labüd hallarda aktiv göstərir. Lakin cəmiyyət məsələlərində şəxsiyyət fəallığının daha geniş aspektləri var. Bu, həm də ictimai əhatənin genişlənməsinə zəmin yaradır. Məhz bu mənada Hüseyn Məmmədov da adıçəkilən əsərində cəmiyyətin əsas kateqoriyalarına geniş yanaşmağa üstünlük verib və düz də edib.

Ümumilikdə, Hüseyn Məmmədovun «Xatirələrin izi ilə» kitabını diqqətlə oxuyandan sonra bir daha əmin oluruq ki, halallıq dağ havalı, pak ruhlu, bulaq təbəssümlü insanların həyat amalıdır.

**2021**